# Bakı kəndləri - tarixlərə şahid qədim Qala kəndi...

*"Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür. Bizim borcumuz, gələcək nəsillərin borcu tarixi keçmişimizə, ənənələrimizə, milli nailiyyətlərimizə hörmət etməkdən, onları qoruyub saxlamaqdan ibarətdir".*

***Heydər Əliyev***

**Dünyanın bir çox xalqları zeytunu "həyat ağacı", "ağaclar padişahı"adlandırır. Qədim romalılar bu ağaca müdriklik nişanəsi kimi baxmışlar. Tarixi sənədlər göstərir ki, hələ b.e.ə. Kür-Araz vadisində, həmçinin Abşeronda zeytun yetişdirilib. Ümumiyyətlə, Abşeron zeytunçuluğun vətənlərindən sayılır. Respublikada 3 növ zeytun yetişdilir: Azərbaycan zeytunu, armudu zeytun və şirin zeytun. Bu yerli növ zeytunlar həmçinin Türkmənstan və Əfqanstanda da becərilir.**

***(Əvvəli ötən saylarımızda)***

Zeytunun quru çəkisinin 80%-i yağdır. O, bitki yağları içərisində ən keyfiyyətlisi sayılır.1 kq zeytun tutmasının qidalılığı 2050-2380 kkal-a bərabərdir. Ta qədim dövrlərdən Abşeronda, xüsusən də Qala kəndində zeytun əkilib. Abşeronun "yaşıl qızılı" adlandırılan zeytunçuluğu inkişaf etdirmək məqsədilə 1988-ci ildə "Zeytun" aqrofirması yaradılıb. 1,2,3 nömrəli zeytunçuluq sovxozu Hövsan, Zığ, Qala kəndlərini əhatə edirdi. Bu unudulmaqda olan bitkinin Abşeronda, o cümlədən Qala kəndində becərilməsi burada mədəni irs abidələrini qorumaq və təbliğ etməklə yanaşı, dünya turizmində öncül sahələrdən biri olan aqroturizmin inkişafına kömək etmiş olardı.

Maldarlıq. Min illər boyu Abşeron əhalisinin əsas təsərrüfat məşğuliyyəti sahələrindən biri maldarlıq olub. Burada at, eşşək, dəvə və qatır saxlanıb və maldarlıq tövlə-otlaq-yaylaq və tövlə-otlaq tipində olub.

1683-cü ildə Bakıda olmuş alman səyyahı Engelbert Kempfer yazırdı ki, şəhəri qoyun əti ilə Abşeron kəndləri təmin edir. Bütün Qafqazda qoyunçuluğun əsas beşiyi sayılan Azərbaycanda təbii seçmə və xalq seleksiyası yolu ilə bir sıra məhsuldar qoyun cinsləri və növləri əmələ gəlib. Bunlardan Qarabağ, Qala, Qaradolaq, Şirvan, Bozax və s. qoyun cinslərini qeyd etmək olar.

Abşeronda quyruqlu qoyunlar saxlanılmaqla, əsasən Qala, Kəsmərək, Şirvan, Dağıstan qoyun cinsləri yayılıb. Qala və Kəsmərək qoyun cinsləri Abşeron üçün səciyyəvi olub.

Qala qoyun cinsi öz üstün keyfiyyətlərinə nəinki Abşeronda, hətta Qafqaz regionunda qabaqcıl yerlərdən birini tutur. Bunu müvafiq elmi məlumat kitabları, ta qədimdən qoyunçuluqla məşğul olan bu təsərrüfat sahəsinə dərindən bələd olanlar da təsdiqləyər.

Qala qoyunu haqqında "Azərbaycan Ensiklopediyasında yazılır": "Qala qoyunu qaba yunlu, yağlı, quyruqlu, ətlik-südlük, yerli qoyun populyasiyalarından olub, xalq seleksiyası yolu ilə yayılmışdır. Başı iri, boynu uzunsov və ətli, döşü enli, ayaqları uzundur. Qoçları buynuzlu və xırda buynuzlu (həmçinin gabaş, yəni buynuzsuz)olur. Rəngləri əsasən kürən və bozdur".

Qoyunların nişanələrə ayrılmasında onların rəngi, qulaq rəngi, forması və s. başlıca əlamətlərdən sayılıb. Məsələn, qırmızıqulaq, bozqulaq, sarıqulaq, qızılqulaq, kərə, kürə, əbrəş, boz əbrəş, çahar təpəl, ağ təpəl, qara, çal, ağ, boz, qumral, qızılı, ala, ətəkli və s. Ümumiyyətlə, Abşeronda xarici əlamətlərə görə qoyunlar 56 növə ayrılıb.

Qala cinsinin qoçları 56-100 kq, qoyunları isə 48-76 kq olur. İki hissəli quyruqları 6,3-10 kq (bəzən 15-20 kq) təşkil edir. Həmin cins həm də qalın yunlu olur. Belə ki, qoçlardan orta hesabla 3,4-4,5 kq, qoyunlardan isə 2,85 kq yun qırxılır. İllik süd sağımı 55-60 litr təşkil edir. Hər 100 doğar qoyundan 102-110 quzu almaq olar. Onların duruşu da cəlbedicidir. Bütün bu cəhətlərinə görə Qala qoyunu Abşeronda həmişə yüksək qiymətləndirilib.

Əhliləşdirilmiş ev heyvanları içərisində at qədər insana yaxın və mehriban olanı yoxdur. Yaxşı at sahibini məğrur, cavan, şux saxlayır. "At muraddır", "Yuxuda at görən adam öz muradına çatar" deyilir. "At nalı ilə rastlaşan adam istəyinə çatar" deyiblər. Adətən küçə qapılarına, kandara nal mıxlayırlar ki, o həyətə, evə, ailəyə səadət nəsib olsun. 1832-ci ilə aid arxiv sənədlərində göstərilir ki, ticarət işlərində istifadə üçün Bakı xanlığında 3000 at var idi. XX əsrin əvvəllərinə kimi Abşeronda həm əkinçilik, həm heyvandarlıq təsərrüfatlarında, həm də nəqliyyat vasitəsi kimi at mühüm rol oynayıb. 1898-ci ilin məlumatına görə, Bakı quberniyasında təqribən 9962 ədəd at olub.

Abşeronda Qarabağdan, Qubadan və s. yerlərdən gətirilmə atlarla yanaşı, yerli atlar da şöhrət qazanıb. Bu cəhətdən Qala atları daha çox diqqəti cəlb edirdi.Yarımadada satış məqsədilə at əsasən Saray, Qobu, Güzdək, Novxanı və xüsusən də Qalada yetişdirilirdi. Qala atları sərrast bədən quruluşuna, yorğa yerişinə, qoşqu keyfiyyətlərinə, həmçinin daşlı-kəsəkli yerlərdə sərbəst yerişinə görə yüksək qiymətləndirilirdi.Təsadüfi deyil ki, abşeronluların ən sevimli əyləncələrindən olan at çapma yarışları (xüsusən bayramlarda) əsasən Qala kəndində keçirilərdi. Belə yarışlarda əsasən yerli cins atlar sınaqdan çıxarılardı.

At çapma yarışı ilə əlaqədar ibratamiz bir toy adəti haqqında danışmaq yerinə düşərdi. Vaxtilə Abşeron kəndlərində "gəlin gəldi " zamanı pərdə aparmaq ənənəsi geniş yayılmışdı. Gəlin gətirməyə araba, faytonla bərabər atlılar da gedərdi. Gəlin yola düşdükdən sonra "gəlin pərdəsi"ni atlılardan birinə verərdilər ki, onlar da atlarını çapmağa başlardılar. Kim qabağa düşdü, pərdəni o birindən alardı. Atlılar çapa-çapa pərdəni bir-birinə ötürərdi. Oğlan evinə hansı atlı tez çatsaydı, ona xələt bağışlar və atının alnına çiy yumurta çırpardılar. Adət-ənənəmiz beləydi:

*Dər gülü, at igidə*
*Varın var, sat igidə*
*Bərk gündə, bərk ayaqda*
*Yoldaşdı at igidə*





Artıq arxaikləşmiş və unudulmaqda olan belə adət-ənənələr tədricən bərpa olunaraq dirçəldilməsi, vaxtilə Qala kəndində keçirilmiş at çapma yarışları, bayramlar keçirilməsi ənənələrinin bərpası Abşeron kəndlərinin adət-ənənələrinin tanıtımında, bu kəndlərdə kənd turizminin, etnoturizmin inkişaf etdirilməsinə təkan verərdi. Turizmun bu növləri dünyada, Avropa ölkələrində geniş istfadə olunmaqla həmin ölkələrin iqtisadi inkişafında mühüm istiqamətlərindən birinə çevrilib.

Abşeronda atçılıqla bərabər qatır da saxlanırdı.Təsərrüfat işlərində, yük daşımasında istifadə olunan qatır cinsi ən çox Qala kəndində yetişdirilib.

Abşeron yarımadasının təbiəti dəvəçilik üçün çox əlverişli olub. Dəvəçiliklə əlaqədar xalqımızın belə bir zərb-məsəli var: "Dövlətdə dəvə, övladda nəvə". Dəvə təkcə sərvət, bərəkət simvolu yox, həm də əzəmət, qüvvət, yenilməzlik rəmzi sayılıb. İ.Q.Gerber soyadlı müəllif hələ XVIII əsrin 20-ci illərində yazırdı ki, əsrin əvvəllərinə kimi yarımada əhalisi çoxlu sayda dəvəyə malik idi. XIX əsrin əvvəllərinə kimi Abşeronun bir çox kəndlərində, o cümlədən Qalada, Güzdəkdə, Coratda, Masazırda, Maştağada, Hökmælidə, Sarayda, Fatmayıda, Zabratda, Novxanıda, Xırdalanda, Qobuda dəvə saxlanırdı. Məs: XIX əsrin 80-ci illərinə dair məlumatda göstərilir ki, Coratda 300, Qobuda 200, Maştağa və Sarayda hərəsində 100 baş hesabı ilə dəvə var idi. Burada həm iki hörgütlü, həm də bir hörgütlü dəvələr olub.

Abşeronda dəvəçilik bir növ sənaye məqsədinə xidmət edirdi. Yəni yüz illər boyu buradan Azərbaycanın müxtəlif bölgələrinə, hətta xarici ölkələrə neft əsasən tuluqlarla, məhz dəvələrlə daşınırdı. Belə bir faktı nəzərə alsaq ki, dəvə orta hesabla 400-500 kq yük götürməklə, gün ərzində 80-90 km yol gedə bilir, onda neft daşınmasında dəvənin əvəzsiz olduğu aydın olar.

Buna görə də Bakının bir çox kəndlərində dəvə karvanları saxlanırdı. Binəqədidə Hacı Əsgərin, Hacı Diyarın, Hacı İsgəndərin, Hacı Musanın, Hacı Məmmədzinin karvanları adla idi. XIX əsrin əvvəllərində Bakı xanının ticarət karvanlarında 479 dəvə var idi.

Dəvə yunundan məişətdə yüksək keyfiyyətli paltar və döşənəcək hazırlanmasında istifadə edilirdi. Abşeronda müxtəlif yeməklərin hazırlanmasında, yaxud ayrıca olaraq dəvə südü, demək olar ki, istifadə olunmayıb. Abşeron mətbəxində dəvə ətindən isə əsasən qutab hazırlanırdı.

Azərbaycanda dəmiryol nəqliyyatı işə düşəndən sonra Abşeronda dəvəçilik təsərrüfat sahəsi kimi sıradan çıxmağa başladı. Hazırda isə ancaq Qobu və Güzdəkdə müəyyən qədər dəvə saxlanır.

Əhalinin məşğulluğunda Abşeronda neft və duz istehsalı və onların məişətdə rolu əsas olub. Abşeronda neft çıxarılması, ondan bu və ya digər məqsədlər üçün istifadənin tarixi eradan əvvəlki dövrlərə gedib çıxır. Neft Azərbaycanın daxili bazarlarından başqa Şimali Qafqaza, Dağıstana, İrana, Orta Asiyaya, İraqa, Türkiyəyə, Hindistana daşınmaqla, Həştərxan vasitəsilə Rusiyaya və Qərbi Avropaya aparılırdı.

Qədim dövrlərdən başlayaraq Bakı neftindən məişətdə, xalq təbabətində və hərbi işlərdə geniş istifadə olunub. Orta əsr müəlliflərinin əsərlərində rənginə və keyfiyyətinə görə Bakıda bir neçə növ neft çıxarıldığı qeyd olunur: qara, ağ, qırmızımtıl, sarı, yaşıl və s. Bunların içərisində ən qiymətlisi ağ və sarı rəngli neft idi. Qara neftdən əsasən evi qızdırmaq üçün yanacaq və çıraq kimi istifadə olunurdu. Türk səyyahı Övliya Çələbi yazırdı ki, bütün evlərdə neft saxlamaq üçün daşdan düzəldilmiş qablar var idi. Bundan başqa, qala və sarayları qızdırmaq üçün də neftdən istifadə olunurdu.

Vaxtilə Bakının qara neftindən çıraq yağı kimi dünyanın bir çox ölkələrində, xüsusilə İranda geniş istifadə olunurdu. Ağ neft tərkibcə ən təmiz olmasına, tez alışıb-yanmasına, yanarkən güclü istiliyinə görə yüksək qiymətləndirilirdi. Bundan başqa, ağ neft ipək və yun parçalarda olan yağ ləkələrinin təmizlənməsində də tətbiq olunurdu.

Bakı neftinin müalicəvi xüsusiyyətləri ilə əlaqədar neft nəinki digər ölkələrə ixrac olunur, hətta müalicə üçün müxtəlif dövlətlərdən (o cümlədən İrandan) bura xəstələr şəfa tapmaq üçün gəlirdilər. Əsrlər boyu bir sıra xəstəliklərin, o cümlədən yel, sümük, oynaq ağrıları, toxuma, qulaq, irin, çiban, sınıqa, mədə yarası, böyrək və öd kisəsi daşı, müxtəlif dəri-zöhrəvi, bir sıra qadın xəstəlikləri və s.müalicəsində neft müvəffəqiyyətlə tətbiq olunub.

***Elxan MƏMMƏDOV***
***Tarixçi***

***(Ardı növbəti saylarımızda)***